Crowe Horwath™

MAK AZƏRBAYCAN

Salyan şossesi 2, bina 2, m.19/20, Bakı,
AZ1023, Azərbaycan Respublikası

Tel: (994 12) 492 7856
Fax: (994 12) 437 4126
E-mail: mak@crowehorwath.az

**MR- 011**

# Müstəqil Auditorun Hesabatı

«AzRe Təkrarsığorta» Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə
Azərbaycan Respublikası, Bakı şəhəri,
Bakıxanov küçəsi 6, "Bridge Plaza".

**Rəy**

Biz «AzRe Təkrarsığorta» Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətinin konsolidə olunmuş hesabatından, konsolidə olunmuş məcmu gəlirlər hesabatından, konsolidə olunmuş kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətinə dair konsolidə olunmuş hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə olunmuş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə olunmuş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, Şirkətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Maliyyə Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik

Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

«MAK Azərbaycan LTD» MMC-nin

**Direktoru:** Zamin Hüseynov

**Auditoru:** Nail Seyfulla

20 iyun 2017-ci il

Azərbaycan Respublikası, Bakı, Salyan şossesi 2, bina 2, mən. 19, 20.